

*Əsəd QARAQAPLAN*

## ANAMIN MƏKTUBU

Anam mənə məktub yazıb:
"Salam, ay Əsəd, ay Əsəd.
Bu tufanda çölə çıxma,
balam, ay Əsəd, ay Əsəd.

İçmə elə, çəkmə elə,
gənc canına qıyma belə,
dərdin mənə gəlsin elə
alam, ay Əsəd, ay Əsəd.

Bilirəm, unudub hamı,
Gələn hanı, gedən hanı...
Yalqız canının qurbanı
olam, ay Əsəd, ay Əsəd..."

## SƏN ÖZ İŞİNDƏSƏN

hər addım başında bir ayrılıq var
sən öz köçündəsən – mən öz köçümdə
bizimçün fərqlidir bu ayrılqlar
sən öz ölçündəsən – mən öz ölçümdə...

ayrılıq daşıyır hər gəlib-gedən
min ildi dar gəlir bu ruha bədən
biz ki azadlığı sevirik – nədən
sən öz içindəsən – mən öz içimdə...

nə qədər zavallı insanlarıq biz
bizə əzab verir məhəbbətimiz
mən sənsiz qalmışam – sən də ki mənsiz
sən öz işindəsən – mən öz işimdə...

## SONUNCU SEVGİ ŞEİRİ

bir qadın da sevmədik, ayrılaq, şeir yazaq.
bir qızla evlənmədik, çəkilək, xoşbəxt olaq.
bir evimiz olmadı kirayələrdən uzaq,
bir oğul böyütmədik, əsgərə yola salaq...

hər şey bizdən böyükdü, hər şey bizdən balaca,
ortalıqda qalmağın cəzası tənhalıqdı.
bunu da bu şeirin küncünə yaz, balaca,
– biz olan sevgilərin başında ayrılıqdı...

getdik, gördük atamız çoxdan ölüb... anamız
evimizlə bərabər qocalıb, əldən düşüb.
bacılar gəlin köçüb, evlənib qardaşımız,
həyət də ağaclardan, ağac da güldən düşüb...

hər şey saralıb-solub biz gedəndən şəhərə,
biz kirayə qalandan yetim qalıb uşaqlıq...
bəlkə, sevmədiyimiz bir qadından ötəri
ya çox böyük adamıq, ya da ki çox uşağıq...

bizi də böyütməyə gücü çatmaz şəhərin,
nə şəhərlər var bizim uşaq xəyalımızda...
bu böyük gecələrin açılmayan səhəri,
bizi kim anlayacaq, bizi – bu halımızda...

bir oğul böyütmədik, əsgərə yola salaq...
bir evimiz olmadı kirayələrdən uzaq...
bir qızla evlənmədik, çəkilək, xoşbəxt olaq...
bir qadın da sevmədik, ayrılaq, şeir yazaq...

## SƏNGƏRÜSTÜ LALƏLƏR

səngərlərin üstündə lalələr çoxalanda
düşmənimiz daha da təhlükəli olurdu.
torpaqda açılanda lalə – şəhid yaxası
sonuncu şəhid olan ilk təsəlli olurdu.

Ağdam – lalə diyarı, qırmızıya boyanmış,
çöllərə düşən günəş lalələrdə oyanmış,
lalə – səngərimizə ən yaxında dayanmış,
sinəmdəki rənginə baxıb dəli olurdu.

lalələrdən günəşə bir ölümlük yol durub,
lalələrin içini ruhumuzla doldurub,
ürəyim alışanda sağ əlimi qaldırıb,
sinəmdə son gördüyüm "lalə əli" olurdu...

## YANINDAKI SEVMƏDİYİNDİRSƏ

geyindiyin ayaqqabı
geyinmək istəmədiyindirsə
hələ də ayaqyalınsan.

işləmək istəmədiyin iş
işləmək istəmədiyindirsə
hələ də işsizsən.

yediyin yemək yemək istəmədiyindirsə
hələ də acsan..

və yanındakı sevmədiyindirsə
hələ də təksən
ayaqyalın, işsiz və ac...

## HƏFTƏ SONU HÜZÜNÜ

günlər səssizliyiylə gələr həftə sonları
hüzünlü hava çökər buludların altına
mən hərdən çəkinərəm dar qəfəsdən çıxmağa
girərəm otağımda umudların altına…

bu hüzün başqa hüzün – insanın son nəfəsi
bu umud mənə qəfəs – mən otağın qəfəsi
bu həftə sonu onun eşidiləcək səsi
yenə səriləcəyəm sükutların altına…

heç kəs məni sükutun əlindən almayacaq
hər kəs gedər, o da yox, o heç vaxt olmayacaq
ehh, biz ölsək, bir nəfər sağ adam qalmayacaq
ölülər girəcəklər tabutların altına...

## TƏNHALIQ HƏR KƏSİN ÇIXIB GETMƏSİ DEYİL

tənhalıq hər kəsin çıxıb getməsi deyil
insanın özünə daha çox gəldiyi andır...

burdan başlayır bütün gedənlərin fahişəliyi
burdan başlayır gələnlərin
nə vaxtsa gedəcək fahişəlik hazırlığı...

gəlib görürsən otağında ancaq sən özünsən
və kimsə səni yenidən unutmaq üçün
getmək üçün yanında deyil
soyunub bütün paltarlarını
anadangəlmə olursan otağında
yeni doğuluşun başlayır tənhalıqda...

anana belə gərək qalmır səni yenidən doğmasına
zatən ana insana bir dəfə lazım olur –
o da dünyaya gələndə
əzab çəkəndə ana da adama lazım olmur
daha doğrusu ola bilmir
bu canı doğan anandırsa
daşıyan sənsən özünsən...

tənhalıq hər kəsin çıxıb getməsi deyil
insanın özünə daha çox gəldiyi andır…